## *SİNİF RƏHBƏRİ GUŞƏSİ*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SİNİF RƏHBƏRİNİN İŞİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU

**Reyhan Əzimova**,
*Abşeron rayonunun Görədil kənd tam orta məktəbin*
*Fizika müəllimi*
E-mail: azimovareyhan2@gmail.com

**Rəyçilər**: *ped.ü.fəls.dok.* Ə. Gərayev,
*ped.ü.fəls.dok.* M. Kazımov

***Açar sözlər:*** *əsasnamə, təlim-tərbiyə işi, praktik məsələlər, təşkil etmək, idrak fəaliyyəti*
***Ключевые слова:*** *положение, учебно-воспитательная работа, практические задачи, организовать, познавательная деятельность*
***Key words:*** *regulation, educational and training work, to organize, practical tasks, cognitive activity*

Orta ümumtəhsil məktəblərində şagirdlərin şəxsiyyət kimi formalaşmasında sinif rəhbərləri əhəmiyyətli rol oynayır. Sinif rəhbərlərinin fəaliyyəti "Sinif rəhbəri haqqında Əsasnamə"də öz əksini tapmışdır. Bu gün ümumtəhsil məktəblərində çalışan fəal sinif rəhbərləri də oz işlərinin bu əsasnamənin tələblərinə uyğun qurmağa çalışırlar. Onlar sentyabr ayından başlayaraq dərs ilinin sonuna qədər çox intensiv şəkildə iş aparırlar. Şagirdlərin dərsə davamiyyəti, tədrisi və s. məsələlərlə ciddi məşğul olurlar. Mütəmadi olaraq fənn müəllimləri ilə sıx əlaqə saxlayırlar. Tədris zamanı zəifləyən şagirdləri xüsusi nəzarətə götürür, onların valideynləri ilə əlaqə saxlayırlar. Şagirdlərlə bağlı problemlər baş verərsə, sinif rəhbəri məktəb psixoloqu ilə birlikdə onlara psixoloji yardım göstərir, bir sıra məsləhətlər verir və s. Sinif rəhbəri vasitəsi ilə şagirdlərə sosial qayğı göstərilir, problemləri həll edilir, sinifdə emosional atmosferin formalaşması üçün zəmin yaradılır.

*Sinif rəhbəri aşağıdakı hüquqlara malikdir:*

- uşaqların fiziki və psixoloji sağlamlığı barədə müntəzəm olaraq məlumat əldə etmək;
- sinifdə dərs deyən fənn müəllimlərinin (həmçinin, məktəb psixoloqu və digər müəllimlərin) işini əlaqələndirmək;
- məktəbin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təşəbbüslə çıxış etmək, təkliflər irəli sürmək, işgüzar, yaradıcı, tənqidi fikir söyləmək, sinif kollektivi ilə razılaşdırılmış fikir və mülahizələri pedaqoji şurada baxılmaq üçün təqdim etmək;
- mövcud vəziyyəti nəzərə almaqla, uşaqlarla fərdi iş rejimi müəyyənləşdirmək;
- tərbiyə problemləri üzrə təcrübi-eksperimental iş aparmaq;
- valideynləri (onları əvəz edən şəxsləri) təhsil müəssisəsinə dəvət etmək, onlarla işgüzar əlaqə yaratmaq;
- pedaqoji kadrların yenidən hazırlanması sistemi vasitəsilə pedaqoji ustalığın yüksəldilməsi formalarını seçmək, treninqlər vasitəsilə pedaqoji işin müxtəlif qrup və kollektiv formalarında iştirak etmək;
- məktəb özünüidarəetmə orqanlarında şəxsi şərəf və ləyaqətini qorumaq və sinif kollektivində sinifdənxaric işin vəziyyətinin qiymətləndirilməsində mövqeyini müdafiə etmək;
- ümumtəhsil müəssisəsinin rəhbərliyi ilə razılaşma əsasında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya (mütəxəssislərə) müraciət etmək.

Aparılan araşdırmalardan məlum olur ki, hələ də bəzi sinif rəhbərləri öz hüquq, vəzifələrindən xəbərsizdirlər və fəaliyyətlərində aşağıdakı səhvlərə yol verirlər.

*Sinif rəhbərinin fəaliyyətində aşağıdakılar yolverilməzdir:*

- uşaqların şəxsiyyətini, ləyaqətini alçaltmaq, onu sözlə və ya hərəkətləri ilə təhqir etmək;
- şagirdi cəzalandırmaq məqsədilə dərs zamanı əsassız olaraq təlim müvəffəqiyyətini əks etdirən qiymətini aşağı salmaq;

- uşağın etimadından süni istifadə etmək, ona verdiyi vədə əməl etməmək, onu düşünülmüş şəkildə aldatmaq;

- şagirdin özü iştirak etmədiyi şəraitdə onun hərəkətlərini müzakirə etmək, onu pisləmək, nüfuzunu aşağı salmaq.

- şagirdlər qarşısında öz həmkarlarını onların iştirakı olmadan müzakirə etmək, onları pisləmək, müəllimin və bütün pedaqoji kollektivin nüfuzuna xələl gətirmək.

*Sinif rəhbəri öz fəaliyyətini aşağıdakı istiqamətlərdə qurur:*

- sinif kollektivini formalaşdırmaq və inkişaf etdirmək;

- müdafiə olunma situasiyası, emosional rahatlıq, şəxsiyyətin inkişafı üçün əlverişli psixoloji-pedaqoji şəraiti yaratmaq;

- hər bir uşağın fərdi özünüifadəsi üçün lazımi şərait yaratmaq, şəxsiyyət kimi inkişaf etdirmək, təkrarolunmazlığını qoruyub saxlamaq və onun potensial qabiliyyətini aşkarlamaq;

- məktəblinin hüquq və maraqlarını müdafiə etmək;

- sinif kollektivi ilə sistemli iş təşkil etmək;

- şagirdlərlə şagirdlər, şagirdlərlə müəllimlər arasında münasibətləri humanistləşdirmək;

- şagirdlərdə əxlaqi və mənəvi dəyərləri formalaşdırmaq;

- şagird özünüidarə inkişafı vasitəsilə şagirdlərin sosial əhəmiyyətli, yaradıcı fəaliyyətlərini təşkil etmək.

Sinif rəhbəri tədris ilinin əvvəlində müdiriyyətdən sinif jurnalını qəbul edib, onu tələb olunan qaydada səliqə ilə yazıb hazırlayır və onun müəllimlər tərəfindən həmişə səliqəli yazılmasına və aparılmasına nəzarət edir. Sinfin bütün şagirdlərinin gündəliklərinin olması və onun normal aparılması qayğısına qalır və onu təmin edir, hər gün keçirilən fənlər üzrə hər dərsdə şagirdlərə verilmiş qiymətlərin orada düzgün və səliqəli yazılmasını və aparılmasını, hər həftə gündəliklərin valideynlərə göstərilib imza etdirilməsini isə müəllimlərdən tələb edir və ona nail olur. O, vaxtaşırı şagird gündəliklərini yoxlayıb, qiymətlərin orada düzgün yazılmasına nəzarət edir, hər rübün sonunda şagirdlərin rüblük qiymətlərini gündəliyin axırındakı xüsusi qrafaya köçürür.

Sinif rəhbəri şagirdlərin şəxsi işlərini diqqətlə nəzərdən keçirib normal vəziyyətdə hazırlayır, dərs ilinin sonunda hər şagirdə onun təlim-tərbiyə fəaliyyəti, şagirdlər üçün qaydalara necə riayət etməsi, məsuliyyəti, intizamı, mədəni davranışı və xasiyyəti haqqında xüsusi xarakteristika tərtib edir.

O, tədris rüblərinin sonunda müəllimlərin razılığı ilə şagirdlərin rüblük, ilin axırında isə illik qiymətlərini-təlim müvəffəqiyyətlərini müəyyənləşdirib qiymət cədvəllərinə (sinif jurnalına) köçürür və bu barədə məktəbin rəhbərliyinə rəsmi məlumat verir.

O, öz sinfində aparacağı təlim-tərbiyə işlərinə aid yarımillik və ya iş illik planları yazıb hazırlayır, sinif şagirdləri ilə il ərzində həyata keçirilmiş bütün təlim-tərbiyə işləri barədə dərs ilinin sonunda ətraflı hesabat yazır və məktəb müdiriyyətinə təqdim edir, rəsmi hesabat verir.

Sinif rəhbəri sinfin tərbiyə vəzifələrini müəyyən edir və onları həyata keçirir.

Şagirdlərin fərdi xüsusiyyətlərindən asılı olaraq bu vəzifələrin həyata keçirilməsinin vasitə və metodları da müxtəlif ola bilər. Belə ki, bəzi şagirdləri təriflәmək, digərlərinə əmr vermək, başqalarını isə davranış qaydalarını pozduqlarına görə tənbeh etmək lazım gəlir. Deməli, şagirdləri düzgün tərbiyə etmək üçün onlara fərdi yanaşmağı bacarmaq lazımdır. Fərdi yanaşma isə yalnız şagirdləri dərindən və hərtərəfli bilmək əsasında mümkün ola bilər.

Sinif rəhbəri sinifdə şagirdlərin fəaliyyətinin təşkilatçısı və tərbiyəsinə təsir edən koordinator sayılır. Məhz sinifdə şagirdin idrak fəaliyyəti inkişaf edir və onlar arasında sosial münasibətlər formalaşır. O sinifdə şagirdlərin mentoru, təlim-tərbiyə işinin təşkilatçısı olur. Belə ki, sinif rəhbəri - məktəbdə tərbiyə prosesinin ən vacib təşkilatçılarından olub, məktəb qarşısında duran təlim-tərbiyə işinin həyata keçirilməsinə, sinif kollektivinin işinin səmərəli qurulmasına çalışır.

Sinif rəhbərinin fəaliyyəti məqsədyönlü, sistemli, planlaşdırılan prosesdir. O, məktəb nizamnaməsi, tərbiyə işinin planlaşdırılması, əvvəlki fəaliyyətin, ictimai həyatın müsbət və mənfi tendensiyalarının təhlili əsasında, pedaqoji kollektiv qarşısında duran aktual vəzifələr nəzərə alınmaqla şəxsiyyətə yönəldilmiş yanaşma, sinif kollektivində vəziyyət, müxtəlif millətlərin nümayəndələri arasında etnik və dini münasibətləri tənzimləməklə, şagirdlərin tərbiyəlilik səviyyəsi, onların sosial vəziyyəti, ailə şəraitlərinin özünəməxsusluğu əsasında qurulur.

**Problemin aktuallığı:** Sinif rəhbərinin əsas vəzifələri təhsil alanları şəxsiyyət kimi yetişdirmək, onlarda əsl vətəndaş, mənəviyyat, təşəbbüskarlıq kimi yüksək keyfiyyətlərin və müstəqil tənqidi təfəkkürünün formalaşmasına kömək göstərməkdir.

**Problemin elmi yeniliyi.** Sinif rəhbərinin işinin mahiyyət və məzmunu açıqlanmış, onların işinin şagirdlərin bilik, bacarıq və qabiliyyətlərinin inkişafına yönəlməsi barədə məlumatlar verilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə verilmiş sinif rəhbərinin hüquqları, onun işində yol verilməyən hərəkətlər sinif rəhbərlərinə işlərini düzgün qurmağa kömək edəcəkdir.

## ƏDƏBİYYAT

1. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı, 1996.
2. Qasımova L., Mahmudova R. Pedaqogika. Bakı, 2003.
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Abbasov A., Əlizadə Ə. Pedaqogika. Bakı, 2000.
5. Qulyaeva N. A. Sinif rəhbərinin işi. Bakı, 1990.

**Р. Азимова**

## СУЩНОСТЬ И СОДЕРЖАНИЕ РАБОТЫ КЛАССНОГО РУКОВОДИТЕЛЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

### *РЕЗЮМЕ*

В статье говорится о том, что организатором деятельности учащихся в классе и координатором воспитательных воздействий является классный руководитель. Именно он непосредственно взаимодействует как с учениками, так и с их родителями, искренне стремится помочь детям в решении их проблем в школьном коллективе, интересно и с пользой организовать школьную жизнь. Он является организатором воспитательной работы в классе и наставником учащихся, организует и воспитывает ученический коллектив.

**R. Azimova**

## ESSENCE AND MAINTENANCE OF THE WORK OF THE CLASS LEADER IN THE GENERAL EDUCATION SCHOOLS

### *SUMMARY*

The article says that the class teacher is the organizer of the activities of students in the classroom and the coordinator of educational influences. It is he who directly interacts with both students and their parents, sincerely strives to help children solve their problems in the school community, and it is interesting and useful to organize school life. He is the organizer of educational work in the classroom and mentor of students, organizes and educates the student team.

**Redaksiyaya daxil olub:** 07.02.2018